AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

UNEC

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

**Təsdiq edirəm:** ______________________

“**Maliyyə və audit**” kafedrasının müdiri
i.e.d., prof.Ə.Ələkbərov

*Tarix: 11 sentyabr 2025*

***Bank işi*** *fənni üzrə işçi tədris proqramı*
(SİLLABUS)

**I.Fənn haqqında məlumat:**

| | |
|---|---|
| Fənnin kodu: | *00160* |
| Fənnin növü: | *Seçmə* |
| Tədris ili: | *2025/2026* |
| Fənnin tədris semestri: | *payız* |
| Fakültə (lər): | ***Maliyyə və mühasibat*** |
| | *626,628,630* |
| | ***Biznes və menecmen*** |
| Qrup: | *904,906,910, 942,944* |
| | ***İqtisadiyyat*** |
| | *510,524* |
| Tədris yükü: | *30/30* |
| Kredit sayı: | *7 (yeddi)* |

**II.Müəllim haqqında məlumat**

| | |
|---|---|
| Fənni tədris edən müəllim: | *Prof.E.M.Sadıqov* |
| E-mail ünvanı: | *sesiya@rambler.ru* |
| | *Prof.M.M.Bağırov* |
| | *mubariz.bagirov61@gmail.com* |
| | *Dos.Z.H.İbrahimov* |
| | *z.ibrahimov@unec.edu.az* |
| | *Dos.Z.H.Zeynalov* |
| | *Zeynalov_zakir@unec.edu.az* |
| | *Dos.F.Ş.Kaşıyeva* |
| | *flora_seadet@mail.ru* |
| Tələbələr üçün qəbul günləri: | *II gün saat $10^{00}$-$13^{00}$* |

## III. Fənnin təsviri

*Bank fəaliyyətinə aid mövzuların tədqiqi, bank sisteminin mahiyyəti, Mərkəzi Bankın funksiyaları və rolu, özəllikləri, qlobal maliyyə böhranından sonra Mərkəzi Bankın məqsədi və vəzifələri; kredit təşkilatlarının rolu, funksiya və vəzifələri, banklarda kapital resurslarının formalaşması qaydaları, ödəniş sistemlərinin fəaliyyətinin təhlükəsizliyi; bank fəaliyyətinin təşkili, idarə edilməsi, təşkilati strukturu və reqlamenti; bank öhdəliklərinin formalaşması və onların strukturunun optimallaşdırılması, öhdəliklərin mənbələrinin keyfiyyətcə səmərəli idarə olunması və bank kapitalının ölçülməsi qaydası; bank aktivlərin təhlükəsizliyi; bankların kassa əməliyyatları və nağdsız hesablaşmaların həyata keçirilməsi şərtləri; banklarda kreditlərin verilməsi proseduru; bank sistemində risklərin idarə edilməsi prosesi; bank tərəfindən kredit sifarişlərinin qiymətləndirilməsii meyarları; bankların qiymətli kağızlar bazarında investisiya fəaliyyəti; beynəlxalq bank işi və bankların valyuta əməliyyatları; bankların vasitəçilik əməliyyatlatları, banklarda marketinq planı və maliyyə internet xidmətlərinin təkmilləşdirildirilməsi, bank sistemində gəlirlərin formalasması və onlardan istifadənin qiymətləndirilməsi kimi mövzular bankçılıq elmində tədqiqat obyekti kimi xüsusi əhəmiyyət kəsb edir və bu cəhətdən yuxarıda qaldırılan bütün suallar cavablandırılmışdır.*

## IV. Fənnin məqsədi və vəzifələri

*"Bank işi" fənninin tədrisində əsas məqsəd - Azərbaycanda bank sisteminin hüquqi bazasının, iqtisadiyyatda bank xidmətlərinin rolunu, bank sisteminin stabil və təhlükəsiz fəaliyyətinin təmin edilməsi məqsədilə Mərkəzi Bankın rolunu və əhəmiyyətini, bankların təşkili, daxili idarəedilməsi, fəaliyyətinin tənzimlənməsi və ləğv edilməsi prinsiplərini, qaydalarını və normalarını, respublikada yenidən qurulan ikipilləli bank sisteminin formalaşması, kommersiya banklarının geniş şəbəkəsinin yarandıgı bir şəraitdə tələbələrə yeni proses və meylləri təhlil etmək bacarığını öyrətmək və izah etməkdir.*

*"Bank işi" fənninin tədrisi bazar iqtisadiyyatına keçid şəraitində həyatın bütün sahələrində baş verən iqtisadi yeniliklərin öyrənilməsi baxımından da əhəmiyyətlidir.*

*"Bank işi" kursunu öyrənən tələbələr habelə bank fəaliyyətini tənzimləyən qanunvericilik aktları və normativ sənədləri də bilməlidirlər.*

*Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:*

- *fənni bitirdikdən sonra tələbə bank işi haqqında tam məlumat əldə edir.*
- *bank sisteminin fəaliyyətini tənzimlənməsini əks etdirən normativ- hüquqi sənədlərlərlə yaxından tanış etmək;*
- *kreditlərin verilməsi və geri qaytarılması, bankın qiymətli kağızlarla və digər aktiv əməliyyatlarından istifadə etmək bilikləri əldə ediləcəkdir.*
- *fənnin tədrisindən sonra tələbələr banklarla iqtisadi münasibətlərin qurulması, bank əməliyyatlarının sənədləşməsi və bankın xidmət növlərinin mahiyyətinə yiyələnməlidir.*
- *bank fəaliyyəti haqqında komleks nəzəri biliklər vermək;*
- *bank xidmət və məhsulları, bank marketinqi və menecmenti, bank fəaliyyətində maliyyə nəticələrinin təhlili qaydalarını praktik olaraq istifadəsini öyrətmək;*
- *Tələbələri müasir bank sisteminin vəziyyəti,inkişafı və problemləri haqqında məlumatlandırmaq və bank sistemində stifadə olunan əsas anlayışları izahını verməkdir.*

**V. Öyrənmənin nəticələri:**

*Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:*

**Bilməlidirlər:**

- Azərbaycanın bank sistemini, onun strukturunu
- Kommersiya banklarinin fəaliyyət prinsiplərini
- Ödəniş sisteminin mahiyyətini, pul tədavülünü və pul köçürmələrini və nağdsiz hesablaşmaların formalarını;
- Bankların aktiv, passiv və vasitəçilik əməliyyatlarını
- Bank menecmenti və bank marketinqini
- Bank risklərini;
- Bank fəaliyyətinin təhlilini;

- Banklarda uçot işinin təşkilini.

**<u>Bacarmalıdırlar</u>**:

- əlaqəli iqtisadi hadisələrin, proseslərin və institutların makro və mikro səviyyədə təhlilini
- müstəqil tapşırıqların yerinə yetirilməsi, məlumatların toplanılması, vəzifələri həll etmək üçün zəruri məlumatların təhlili;
- bank işi sahəsində baş verən proseslərin, yerli və xarici banklar haqqında statistikaların təhlili və şərhi.

## VI. Fənnin mühazirə mövzuları

Burada fənn üzrə tələbələrə oxunacaq mühazirə mövzularının adları təqdim olunur:

1) Bankların yaranması və fəaliyyətinin əsaslari
2) Mərkəzi Bankın funksiyaları və rolu
3) Kommersiya banklarının yaradılması funksiyaları və rolu
4) Kommersiya banklarının hesablaşma əməliyyatları
5) Bankların passiv əməliyyatları
6) Bankların kreditləşmə əmliyyatları
7) Bankların investisiya əməliyyatları
8) Bankların valyuta əməliyyatları
9) Bankların vasitəçilik əməliyyatları
10) Banklarda kassa xidmətinin təşkili
11) Pərakəndə və rəqəmsal bankçılıq
12) Bank menecmenti və marketinqi
13) Bank fəaliyyətində risklər
14) Bank fəaliyyətinin təhlili
15) Banklarda uçot işinin təhlili

## VII. Prerekvizitlər

*Fənnin tədrisi üçün öncədən Pul və banklar və Maliyyə bazarlari fənninin tədrisi zəruri hesab edilir.*

## VIII. Fənnin tədris metodologiyası

*Bank işi fənninin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, kiçik qruplarda iş, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.*

**IX. Fənnin mühazirə mətnləri**

*Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.*

**X. Əsas dərslik və ədəbiyyat**


1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının" Qanunu 2004.
2. "Banklar haqqında Azərbaycan Respublikasının" Qanunu 2004.
3. "Bank olmayan kredit təşkilatları haqqında Azərbaycan" Qanunu.
4. "Valyuta tənzimi haqqında Azərbaycan Respublikasının" Qanunu.
5. "Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikasının" Qanunu.
6. Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında mühasibat ucotunun aparılması qaydaları.
7. Azərbaycan Respublikası Mərkəzi Bankının İllik Hesabatları.
8. Ə.Ə.Ələkbərov, F.Ş.Kaşiyeva "Pul və banklar" dərs vəsaiti. Bakı 2018
9. Ə.Ə.Ələkbərov, Z.H.Zeynalov "Bank işi", metodik göstəriş, "İqtisad Universiteti" nəşriyyatı, Bakı 2017
10. Z.H.Zeynalov "Azərbaycanın bank xidmətləri bazarında lizinqin inkişafı məsələləri" Monoqrafiya , "Çaşıoğlu" nəşriyyatı. Bakı 2018
11. Z.F.Məmmədov, R.M. Rzayev "Bank işi və e-bankçılıq" dərs vəsaiti, Bakı, 2003.
12. Z.F.Məmmədov "Pul, kredit və banklar" Bakı 2004-ci il
13. Ş.Ə.Abdullayev, R.V.Əsgərova "Bank işi" dərslik, Bakı, 2010
14. M.M.Bağırov "Bank işi" dərslik, Bakı, 2003.
15. R.A.Bəşirov "Bank işi" Bakı 2016
16. E.M. Sadıqov "Bank əməliyyatları" Bakı 2010.
17. F.Ş.Kaşiyeva "Azərbaycan Banklarının investisiya fəaliyyətinin prioritet istiqamətləri" Monoqrafiya Bakı 2013.
18. Ə.Ələkbərov,Z.Məmmədov,A.Hüseynova "Maliyyə bazarları" Bakı,2021
19. Ə.Ələkbərov,F.Kashiyeva,T.Qurbanova "Pul ve banklar" Interaktiv dərs vəsaiti, Bakı,2021
20. Ə.Muradov, E.Bağırzadə "Azərbaycan iqtisadiyyatı" Bakı, 2022.
21. Банковское дело" под. ред. Г.Н.Белоглазовой: Учебник-М. Юрайт-издат. 2004.

22. З.Г.Ибрагимов "Генезис денежно- кредитной системы Азербайджана" Баку, 1997.
23. З.Ф.Мамедов "Анатомия финансового кризиса" СПб: Изд-во СПбГУ, 2005. 322 с.
24. http://www.cbar.az
25. Bank işi tədris proqramı Bakı-2023
26.F.S.Mişkin Pul Bank və Maliyyə bazarlarının iqtisadiyyatı Bakı-2021

***XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü*** :

| **Həftə** | **Mövzuların adı** | **Mövzunun əsas məzmunu** | **Ədəbiyyat** |
|---|---|---|---|
| ***1*** | *Bankların yaranması və fəaliyyətinin əsasları* | *Bankların yaranması və mahiyyəti. Bank sisteminin anlayışı və təsnifatı. Bank sistemində böhran.* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik.2016. I fəsil Səh. 14-82* |
| ***2*** | *Mərkəzi Bankın funksiyaları və rolu* | *Mərkəzi Bankın strukturu. Mərkəzi Bankın məqsədi və funksiyaları. Mərkəzi Bankın pul siyasətinin alətləri* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik. 2016. II fəsil səh.96-142* |
| ***3*** | *Kommersiya banklarının yaradılması, funksiyaları və rolu* | *Kredit təşkilatlarının yaradılması və fəaliyyəti. Kredit təşkilatlarının prinsipləri. Kredit təşkilatlarının funksiyaları. Kommersiya banklarının likvidliyi və dayanıqlığı. Kommersiya banklarının lisenziyyalaşdırılması və ləğv edilməsi. Bank sirri* | *R.A.Başirov "Bank işi" dərs vəsaiti, Bakı, 2016. səh. 46-86* |
| ***4*** | *Kommersiya banklarının hesablaşma əməliyyatları* | *Ödəniş sisteminin mahiyyəti. Pul tədavülü və pul köçürmələri. Nəğdsiz hesablaşmaların formaları* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik. 2016. III fəsil. səh.148-182* |
| ***5*** | *Bankların passiv əməliyyatları* | *Bankların passiv əməliyyatlarının ümumi xarakteristikası. Bankların xüsusi vəsaitləri. Bankların məcmu kapitalı. Bankların cəlb olunmuş vəsaitləri.* | *R.A.Başirov "Bank işi" dərs vəsaiti, Bakı, 2016. səh. 90-115* |
| ***6*** | *Bankların kreditləşmə əmliyyatları* | *Aктiv əməliyyatların mahiyyəti , onun formaları. Kreditin funksiyaları və prinsipləri. Kreditin formaları.* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik.2016. II cild. səh. 268-343* |
| *7* | *Bankların investisiya əməliyyatları* | *İnvestisiyanın mahiyyəti, məzmunu və onun növləri. İnvestisiyanın maliyyələşdirilməsi və* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi"* |

| | | | |
|---|---|---|---|
| | | *kreditləşdirilməsi. Qiymətli kağızlara investisiya.* | *dərslik.2016. II cild. səh. 400-408* |
| *8* | *Bankların valyuta əməliyyatları* | *Valyuta əməliyyatlarının mahiyyəti. Bankların Beynəlxalq hesablaşma əməliyyatları.Valyuta əməliyyatlarının növləri. Valyuta əməliyyatlarının tənzimlənməsi. Valyuta bazarının növləri və funksiyaları* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik.2016. X fəsil. səh. 436-452* |
| *9* | *Bankların vasitəçilik əməliyyatları* | *Lizinq əməliyyatları. Faktorinq əməliyyatları. Forfeytinq əməliyyatları. Trast əməliyatları. Azərbaycanda bank məhsulı və xidmətləri* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik.2016. 2 cild səh. 327-343* |
| *10* | *Banklarda kassa xidmətinin təşkili* | *Kredit təşkilatlarında kassa mədaxil əməliyyatlarının rolu. Kredit təşkilatlarında kassa məxaric əməliyyatlarının rolu.* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik.2016. 2 cild səh. 327-343* |
| *11* | *Pərakəndə və rəqəmsal bankçılıq* | *Pərakəndə bankçılıq Rəqəmsal bankçılığın növləri və onun əsas strategiyası* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik.2016. 2 cild səh. 186-234* |
| *12* | *Bank menecmenti və marketinqi* | *Bank menecmenti. Bank marketinqi* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik.2016. 2 cild səh. 62-117* |
| *13* | *Bank fəaliyyətində risklər* | *Bank risklərinin mahiyyəti. Bank risklərinin təsnifləşdirilməsi. Bank risklərinin növləri .* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik. 2016 səh -132-186* |
| *14* | *Bank fəaliyyətinin təhlili* | *Bank fəaliyyətinin təhlili. Kommersiya banklarının qəlirlərinin təhlili. Kommersiya banklarının xərclərinin təhlili. Kommersiya banklarının mənfəəti və likvidliyi.* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik.2016. 2 cild XV fəsil Səh.246-292* |
| *15* | *Banklarda uçot işinin təhlili* | *Banklarda uçot işinin təşkili. Analitik, sintetik mühasibat uçot. Aktiv və passiv əməliyyatların uçotu.* | *Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik.2016. 2 cild XVI fəsil Səh.304-413* |
| | **Yekun imtahan** | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı; 5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir. Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal
- 9 bal: 4,5 bal
- 8 bal : 4baI
- 7 bal: 3,5bal
- 6 bal: 3 bal
- 5 bal: 2,5 bal
- 4bal: 2bal
- 3 bal:1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir. B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah; b - seminar dərslərində alınan müxtəlif ballar s - semestr ərzində verilən cavabların sayı

m - aktivlik bahna aynlan maksimal bal;

l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV Fənn üzrə ara və aralıq qiymətləndirmə**

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada 8-ci və 9-cu tədris həftələri ərzində, aralıq qiymətləndirmə isə semestrin sonunda test üsulunda keçirilir

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" - F
51-60 bal - "qənaətbəxş" - E
61-70 bal - "kafi" - D
71-80 bal - "yaxşı" - C
81-90 bal - "çox yaxşı" - B
91-100 bal - "əla" - A

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.